

**Atakişiyev Müşfiq Cəmil oğlu**

i.e.d., prof.
Elm və Təhsil Mərkəzi
"Təfəkkür" Universitetinin
rektoru

AZ1073. Bakı şəhəri,
Təbriz küçəsi, 19.

mushfik_atakişiyev@yahoo.com

UOT 338.2:330.3 (479.24)

# SOSİAL YÖNÜMLÜ İQTİSADİYYAT DAVAMLI İNKİŞAFIN TƏMƏLİDİR

səh. 87-96

**Xülasə**

*Tədqiqatın məqsədi* – müasir şəraitdə Azərbaycanın sosial-iqtisadi inkişaf səviyyəsinin təhlili, onun əsas istiqamətlərinin müəyyənləşdirilməsi və bu sahədə müvafiq təkliflərin irəli sürülməsi təşkil edir.

*Tədqiqatın metodologiyası* – sistemli və müqayisəli təhlil, proqnozlaşdırma metodu.

*Tədqiqatın nəticələri* – Azərbaycanın sosial-iqtisadi inkişafının davamlılığı baxımından sistemli tədqiqat aparılmış və bu istiqamətdə elmi əsaslandırılmış təklif və tövsiyələr verilmişdir.

*Tədqiqatın məhdudiyyətləri* – sosial-iqtisadi inkişafın uzunmüddətli proqnozunun işlənmə metodlarının az mükəmməlliyi.

*Tədqiqatın praktiki əhəmiyyəti* – Azərbaycanın uzunmüddətli dövrü əhatə edən sosial-iqtisadi inkişaf konsepsiyasının hazırlanmasında əhəmiyyətli olan elmi əsaslandırılmış konkret təklif və tövsiyələr, müddəalar irəli sürülmüşdür.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* – yeni yanaşma üsullarından istifadə edərək Azərbaycanın sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinin elmi tədqiqi.

**Açar sözlər:** *davamlı iqtisadi artım, sosial yönümlü inkişaf, sosial inkişaf strategiyası, iqtisadi strategiya.*



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

## 1. Giriş

Azərbaycanın bütövlükdə regionun ən aparıcı dövlətlərindən birinə çevrilməsi, ilk növbədə, elmi əsaslar üzərində gerçəkləşdirilən milli iqtisadi inkişaf modelinə əsaslanır. Beynəlxalq maliyyə qurumlarında da maraqla qarşılanaraq ciddi elmi müzakirələrə səbəb olan bu model özünəməxsus cəhətləri ilə əlverişli coğrafi və geoiqtisadi məkanda yerləşən respublikamızı yeni iqtisadi fenomenə çevirmiş, sabit inkişaf yoluna çıxarmış, elmi təmələ əsaslanan iqtisadi siyasəti respublikanın inkişafı prosesində dinamizmi və məqsədyönlülüyü təmin etmiş, qarşıda duran vəzifələrin həllinə real imkanlar açmış, cəmiyyətin ümumi potensialının milli məqsədlər naminə səfərbər olunmasına etibarlı zəmin formalaşdırmışdır. 2009-cu ildə iqtisadi sahədə keçid dövrünü geridə qoymuş Azərbaycanda son 3 ildə milli ideya səviyyəsində nəzərdən keçirilən strateji məqsədlərdən biri də respublikanın orta inkişaf etmiş ölkələr səviyyəsindən yüksək inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılmasıdır [1-5, 8, 10].

2020-ci ilədək ümumi daxili məhsulun ən azı 2 dəfəyədək artırılmasını mühüm vəzifə kimi müəyyənləşdirmişdir. Başqa sözlə, keyfiyyətcə yeni mərhələdə Azərbaycanın müasir dövlətə çevrilməsini, tam müstəqil siyasət yürütməsini, ən əsası inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlməsini milli ideyanın başlıca hədəfi kimi müəyyənləşdirilmişdir [10].

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf konsepsiyasının hazırlanması Azərbaycanın inkişaf etmiş ölkələr sırasına yüksəlməsində mühüm rol oynayacaqdır. Bütün bunlardan irəli gələrək məqalədə müasir qloballaşma şəraitində Azərbaycan iqtisadiyyatının mövcud vəziyyətinin təhlili, onun sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinin müəyyənləşdirilməsi və bu sahədə müvafiq təkliflərin irəli sürülməsi qarşıya məqsəd qoyulmuşdur.

## 2. Ölkənin iqtisadi reytinqi

Modernləşmə istiqamətində davamlı tədbirlər həyata keçirən Azərbaycanın bütövlükdə regionun ən aparıcı dövlətlərindən birinə çevrilməsi, ilk növbədə, elmi əsaslar üzərində gerçəkləşdirilən milli iqtisadi inkişaf modelinə əsaslanır. Beynəlxalq maliyyə qurumlarında da maraqlı qarşılanaraq ciddi elmi müzakirələrə səbəb olan bu model özünəməxsus cəhətləri ilə əlverişli coğrafi və geoiqtisadi məkanda yerləşən respublikamızı yeni iqtisadi fenomenə çevirmiş, sabit inkişaf yoluna çıxarmışdır.

2003-cü ildən başlayan, elmi təmələ əsaslanan iqtisadi siyasət, qarşıda duran vəzifələrin həllinə real imkanlar açmış, respublikamızın bütün sahələrdə dinamik inkişafını təmin etmişdir.

Makroiqtisadi sabitliyin qorunub saxlanılması, qeyri-neft sektorunun nəzərəçarpacaq dərəcədə artması, inflyasiyanın optimal həddə saxlanılması

hökumətin həyata keçirdiyi inkişaf kursunun səmərəliliyinin əyani göstəricisidir [4, 9].

2012-ci il ölkə iqtisadiyyatının bir sıra mühüm sahələrində nəzərəçarpacaq irəliləyişlərin əldə olunması, biznes mühitinin liberallaşdırılması tədbirləri ilə yanaşı, həm də respublikanın investisiya reytinqinin yüksəlməsi ilə əlamətdar olmuşdur. Cənubi Qafqaz geoiqtisadi məkanında cərəyan edən prosesləri diqqət mərkəzində saxlayan dünyanın aparıcı maliyyə-iqtisadi qurumları, o cümlədən nüfuzlu reytinq agentlikləri öz hesabatlarında Azərbaycanı regionda yüksək investisiya cəlbediciliyinə və makroiqtisadi sabitliyə malik ölkə kimi səciyyələndirmişlər.

Müasir dövrdə bu pozitiv dəyərləndirmələrin Azərbaycan üçün təkcə təbliğati-siyasi deyil, həm də iqtisadi nüfuz baxımından mühüm əhəmiyyət kəsb edir, ölkəmizin investisiya cəlbediciliyini daha da artırır. Nüfuzlu reytinq agentlikləri və maliyyə qurumlarının bu cür hesabatları müasir dövrdə hər bir ölkənin iqtisadiyyatına investisiya və kapital qoyuluşlarının strukturuna təsir göstərən, xarici iqtisadi əlaqələri, müştərək biznes layihələrini stimullaşdıran başlıca amillərdən sayılır. Təkcə xarici investisiyalı deyil, həm də yerli şirkətlər fəaliyyət prioritetlərini müəyyənləşdirərkən ölkənin investisiya reytinqinin beynəlxalq səviyyədə necə dəyərləndirildiyini ciddiliklə nəzərə alırlar [6, 10].

Ötən il həmin reytinq qurumlarının açıqladığı hesabat və proqnozlar respublikamızın iqtisadi böhranın ən son fazasını da başa vuraraq yeni keyfiyyət göstəricilərinə nail olduğunu göstərir. 2012-ci ilin yanvar ayında "Standart &Poor`s" beynəlxalq reytinq agentliyi Azərbaycanın uzunmüddətli yerli və xarici valyutada reytinqini "BBB-" investisiya səviyyəsinə qaldırmış, reytinq üzrə proqnozunu "sabit" səviyyəsində saxlamışdır. "Moody`s İnvestors Servises" beynəlxalq reytinq agentliyi isə aprel ayında yaydığı məlumatda Azərbaycanın suveren kredit reytinqini bir pillə-"Bal"dən "Baa3"ə kimi qaldırmışdır. Beləliklə, daha bir reytinq agentliyi respublikanın uzunmüddətli yerli və xarici valyuta reytinqi investisiya səviyyəsinə yüksəltmişdir. 2012-ci ilin mayında "Fitch" reytinq agentliyi də respublikamızın uzunmüddətli yerli və xarici valyutada reytinqini "BBB-" investisiya səviyyəsində təsdiqləmişdir. Agentlik qərarında göstərirdi ki, Azərbaycanın reytinqinin investisiya səviyyəsində saxlanması aparılan davamlı islahatlar nəticəsində ölkənin iqtisadi qüdrətinin əhəmiyyətli dərəcədə güclənməsini, dinamik sosial-iqtisadi inkişafı, insanların rifah halının yaxşılaşmasını özündə əks etdirir.

2012-ci ildə Azərbaycanın sürətli inkişaf yolunda olduğu, respublikada biznes mühitinin əvvəlki illərlə müqayisədə əhəmiyyətli dərəcədə liberallaşdırıldığı Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının birgə hazırladığı "Qlobal Rəqabət İndeksi"ndə bir daha təsdiqini tapmışdır. Hesabata əsasən, Azərbaycan dünyanın 10 ölkəsi arasında 46-cı yerdə qərarlaşmış və ötən ilki mövqeyini (*55-ci yer*) yaxşılaşdıraraq 9 pillə irəliləmişdir. Dünya İqtisadi Forumu milli rəqabətqabiliyyətliliyi ölkənin və onun institutlarının ortamüddətli perspektivdə iqtisadi artım

templərini təmin etmək qabiliyyəti kimi xarakterizə edir. Respublikamızın son bir ildə bu göstərici üzrə 9 pillə irəliləməsi ölkədəki əlverişli investisiya mühitinin göstəricisi kimi dəyərləndirilir [6, 10].

### 3. İnvestisiya cəlbediciliyi

Dünya ölkələrində iqtisadi böhranın hələ də səngimədiyi bir dövrdə Azərbaycanın rəqabətqabiliyyətinin artması, investisiya artımı və investisiya reytinqinin yüksəlməsi biznes mühitinin sağlamlaşdırılması sahəsində həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi kimi dəyərlədirilməlidir.

Son illər kiçik və orta sahibkarlıq subyektlərinə dövlət büdcəsindən ayrılan vəsaitlərin həcminin ildən-ilə artırılması, iş adamlarının fəaliyyətinə süni müdaxilələrin aradan qaldırılması sahibkarlıq subyektlərinin qeydiyyatı sisteminin sadələşdirilərək "vahid pəncərə" prinsipi əsasında aparılması, gömrük orqanlarında da bu sistemin təşkili, texnoparkların yaradılması, korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsini və digər addımlar bu baxımdan xüsusi vurğulanmalıdır. 2012-ci ildən ölkə iqtisadiyyatına yatırılan sərmayələrin həm kəmiyyət, həm də keyfiyyət baxımından artımı Azərbaycanda yerli və xarici sərmayələri stimullaşdıran normal makroiqtisadi mühitin mövcudluğunu bir daha təsdiqləyir.

### 4. Sənaye potensialı

Ötən il respublika iqtisadiyyatına investisiya qoyuluşları rekord 9 milyard dollarını xarici sərmayələr təşkil etmişdir. Müqayisə üçün bildirək ki, 2010-cu ildə ölkə iqtisadiyyatına 15,5, 2011-ci ildə 20 milyard dollar investisiya qoyulmuşdur. Son illər ümumi investisiya portfelində daxili sərmayələr prioritetliyini qorumaqla, təxminən 65-70 faiz, ümumi daxili məhsulun isə 2,2 faiz artımını təmini etmişdir. Hesabat dövründə qeyri-neft sektorunun ÜDM-dəki payı 52,7 faizə çatmışdır [9, 10].

Dünya Bankının bir neçə gün əvvəl açıqladığı "Qlobal iqtisadi perspektivlər" (Global Economic Prospects) məruzəsinə əsasən, 2013-cü ildə Azərbaycanda ÜDM-in artımının, 2 faiz səviyyəsində olacağı proqnozlaşdırır. Qurum 2013-cü ildə Azərbaycanda ümumi istehsalın artımını 3,7 faiz, 2015-ci ildə isə 3,6 faiz səviyyəsində proqnozlaşdırır. Bu müsbət göstərici və proqnozlar hökumətin investisiyaların şaxələndirilməsi sahəsində yürütdüyü siyasətin səmərəliliyinə dəlalət edir. Neftdən əldə olunan gəlirlərin qeyri-neft sektoruna, istehsal sahibkarlığının inkişafına yönəldilməsini, özəl sektorun ümumi daxili məhsulda xüsusi çəkisinin artırılmasını təmin etmişdir [11].

Hesabat dövründə respublikanın iqtisadi resurslarının düzgün və məqsədyönlü realizə edilməsi, anti-böhran tədbirlərinin gücləndirilməsi, real sektorun dəstəklən-

məsi, sənayeləşmənin stimullaşdırılması, maliyyə-bank sektorunun fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması, vergi mühitinin liberallaşdırılması tədbirləri də ölkənin investisiya cəlbediciliyinin yüksəlməsinə öz təsirini göstərmişdir. Əgər əvvəllər ölkə iqtisadiyyatına investisiyalar əsasən neft-qaz sektoruna yatırıldısa, indi əcnəbi iş adamları daha çox qeyri-neft sektorunun sənaye, İKT, turizm və digər sahələrinə maraq göstərirlər.

Azərbaycanda daxili investisiyaların yüksək artım tempi, ilk növbədə, respublikanın sosialyönümlü siyasətinin mahiyyətindən irəli gəlir. Başqa sözlə, cəmiyyətin gələcəkdə əldə edəcəyi böyük faydalar nəzərə alınaraq, müəyyən məqamlarda böyük maliyyə hesabına başa gələn infrastruktur layihələri də gerçəkləşdirilir.

Əgər 2008-ci ilin dövlət büdcəsində əsaslı kapital qoyuluşuna cəmi 3,3 milyard manat ayrılmışdısa, 2012-ci ildə bu rəqəm 5,7 milyard manat təşkil etmişdir. 2013-cü ilin dövlət büdcəsi xərclərinin strukturunda da ilk yeri məhz dövlət əsaslı vəsait qoyuluşları tutur. Bu məqsədlə büdcədən 6 milyard 915,2 milyon manat və ya ümumi büdcə xərclərinin 3,9 faizi həcmində vəsait nəzərdə tutulmuşdur. Bu il əsaslı vəsait qoyuluşları üçün nəzərdə tutulmuş investisiya 2012-ci illə müqayisədə 1 milyard 1,1 milyon manat və ya 19,18 faiz, 2011-ci ilin faktiki icrasına nisbətən 1 milyard 63,6 milyon manat və ya 18,2 faiz çoxdur.

Azərbaycanda qeyri-neft sektorunun sürətlə inkişafı, xüsusən də yeni enerjitutumlu istehsal müəssisələrinin fəaliyyətə başlaması elektrikə, mavi yanacağa, suya olan tələbatı da kəskin sürətdə artırır. Bu mənada, dövlət əsaslı kapital qoyuluşları həm də biznes mühitinin yaxşılaşdırılmasına xidmət edir.

Digər tərəfdən, hökumətin regional inkişaf məqsədilə həyata keçirdiyi dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlər də kapital qoyuluşlarının artırılmasını zəruri tələb kimi önə çıxarır.

Bu prosesə dövlətlə yanaşı, özəl sektor da aktiv dəstək verir və bunu 2012-ci ilin statistik göstəricilərindən də aydın görmək mümkündür. Ötən il iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 14 milyard manat həcmində vəsait yönəldilmiş, 7,6 milyard manatlıq tikinti-quraşdırma işləri görülmüşdür [9].

Bundan başqa, ölkə iqtisadiyyatı əcnəbilər üçün də investisiya cəlbediciliyini qoruyub saxlamışdır. 2012-ci ildə əvvəlki ilin müvafiq dövrünə nisbətən xarici mənbələrdən əsas kapitala yönəldilən sərmayənin həcmi 30 faizədək artmışdır. Xarici ölkələr və beynəlxalq təşkilatlar əsas kapitala yönəldilmiş vəsaitin 90 faizdən çoxu Böyük Britaniya, ABŞ, Yaponiya, Norveç, Türkiyə, Çexiya və Fransa investorlarına məxsus olmuşdur.

Yerli və xarici sərmayələrə dövlət təminatının gücləndirilməsi, habelə biznes strukturlarının müştərək layihələrə marağının artırılması məqsədilə yaradılmış Azərbaycan İnvestisiya Şirkətinin (AİŞ) bu istiqamətindəki fəaliyyəti də praktik nəticələr verir. AİŞ ötən illərdə yerli və xarici investorlarla birgə 90 milyon manata yaxın in-

vestisiya yatırmışdır. Qurumun təşəbbüskarı olduğu layihələrə xarici və yerli investorlar 900 milyon manatdan çox investisiya yatırımı etmişlər [10].

Ötən il ölkənin sənaye potensialının möhkəmləndirilməsi sahəsində də bir sıra tədbirlər həyata keçirilmişdir.

2012-ci ilin dekabrın 21-də təsdiqlənmiş Vergi Məcəlləsinə əlavə və dəyişiklər bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Dəyişikliklərin bir istiqaməti də sənaye texnoparklarında güzəştli vergi rejiminin tətbiqi ilə bağlıdır. Həmin dəyişikliklə sənaye və texnologiyalar parklarında sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin gəlirlərinin 7 il müddətinə gəlir vergisindən azad olunmuşlar.

Azərbaycanın yaxın onillikdə qarşısında duran əsas məsələlərdən biri iqtisadiyyatda karbohidrogen ehtiyatlarının ixracından asılılığı aradan qaldırmaq və iqtisadi artımın lokomotivi kimi neftdənkənar sahələrin, xüsusilə də qeyri-neft sektorunun aparıcı bölməsi hesab olunan sənaye sektorunun inkişafını təmin olunması, texnoparkların sənayeləşmədə əsas strateji layihələr kimi yer alması, başlıca hədəflər sırasındadır.

Hazırda Sumqayıtda neft-kimya məhsullarının emalı, Balaxanıda məişət tullantılarının emalı və Gəncədə metal (*alüminium*) məmulatlarının istehsalı üzrə sənaye şəhərcikləri və digər texnoparkların yaradılması sənaye texnoparkları layihələrin genişləndirilməsi üçün başlıca zəmin hesab olunur.

Bu baxımdan, hər bir iqtisadi rayonun potensialı nəzərə alınmaqla, xüsusi iqtisad zonaların yaradılması və sənaye şəhərciklərinin qurulması üçün müxtəlif iqtisadi təşviqedici və stimullaşdırıcı addımların atılması prioritet vəzifələrdəndir. Orta və uzunmüddətli perspektivdə sənayeləşmənin bir çox sahələrinin o cümlədən texnoparkların yüksək inkişafına impuls vermək üçün vergi güzəştləri ilə yanaşı, digər həvəsləndirici addımların da atılması nəzərdə tutulur.

Vergi Məcəlləsinə texnoparklarla bağlı edilmiş əlavə və dəyişikliklər iqtisadiyyatın inkişafına töhfə verəcək, layihələrin miqyasının artmasına, bu sahəyə investorların cəlb olunmasına, yeni iş yerlərinin yaradılmasına və son nəticədə məşğul əhalinin sayının artımı fonunda insanların sosial rifahının yaxşılaşmasına zəmin yaradacaqdır.

Yeni vergi rejimi, həmçinin texnoparklarda yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının və ixracının güclənməsinə də imkan verəcəkdir.

Ölkədə istehsal müəssisələrinin sayının artımına müsbət təsir göstərən amillərdən biri də güzəştli kreditlərin həcminin artırılmasıdır.

Ötən il Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 2400 sahibkara 218 milyon manat güzəştli kredit verilmişdir. Bu kreditlər hesabına 9 mindən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur.

## 5. İşsizlik səviyyəsi

Qlobal iqtisadi böhranın mənfi təsirləri bir çox ölkələr üçün ciddi problemlər yaratmış, işsizliyin səviyyəsinin yüksəlməsinə gətirib çıxartmışdır. Avropa ölkələrindən fərqli olaraq 2012-ci ili Azərbaycanda işsizlik probleminin ləğvi baxımından uğurlu mərhələ kimi dəyərləndirmək olar. Ötən ilin yanvarında 5,6 faiz təşkil edən işsizlik səviyyəsi ilin yekunlarına görə 5,2 faizə enmişdir [10].

Bu göstəricilər bir daha təsdiqləyir ki, ölkədə əhalinin həyat səviyyəsi və onun keyfiyyətinin yüksəldilməsi üçün mövcud insan resurslarından, ilk növbədə, əmək qabiliyyətli əhalinin potensialından səmərəli istifadə edilir. 2004-cü ildən regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş proqramların həyata keçirilməsi nəticəsində respublikada məşğulluq problemlərinin həllində əsaslı dönüş yaranmışdır.

Əgər 2000-ci ildə məşğul əhalinin 33,2 faizi dövlət sektorunda çalışırdısa, 2012-ci ildə bu rəqəm 26,1 faizə enmişdir. Bu da, ilk növbədə, özəl sektorun inkişafı ilə əlaqədar qeyri-dövlət sektorunda məşğulluğun səviyyəsinin yüksəlməsinin göstəricisi sayıla bilər. Həyata keçirilən tədbirlər nəticəsində işsizliyin səviyyəsi 2003-cü ildəki 28 faizdən 2012-ci ilin yekunlarına görə 5,2 faizə enmişdir. Başqa sözlə, Azərbaycanda əhalinin məşğulluq səviyyəsi 94,8 faiz olmuş, iqtisadi fəallıq səviyyəsi isə 74,2 faiz təşkil etmişdir [9].

## 6. Sosial müdafiə tədbirləri

Bir sıra Avropa ölkələrində qlobal böhranla bağlı büdcə xərclərinin azaldığı və ciddi sosial gərginliyin müşahidə edildiyi halda,ötən il Azərbaycanda sosialyönümlü layihələrin reallaşdırılmasında hansısa ləngiməyə, yaxud çətinliyə rast gəlinməmişdir. Bu gün ölkədə bazar iqtisadiyyatı prinsiplərinin cəmiyyətdə möhkəm dayaqlar tapması, iqtisadiyyatın liberallaşdırılması sosial himayəyə ehtiyacı olan vətəndaşların maraqları ilə qətiyyən ziddiyyətə girmir. Əksinə,əldə edilən dividendlər insanların sosial problemlərinin həllinə, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilir.

Dünya Bankının hesabatına görə, milli gəlirin ədalətli bölgüsünə görə Azərbaycan 110 inkişaf edən ölkəni geridə qoyur və bu da iqtisadi inkişafın səmərəliliyini göstərir. Bankın hesabatına görə, Azərbaycan dünyanın 153 ölkəsi arasında ən aşağı yoxsulluğa malik 20 ölkədən biridir [5-7, 10].

Neftdən əldə olunan vəsaitlərin böyük qisminin insan kapitalına yönəldilməsini təmin etmək istiqamətində yeridilən məqsədyönlü strategiya inkişaf etmiş bir sıra dövlətlərin təcrübəsində özünü tam doğrultmuşdur. İntellektual potensial əhəmiyyətinə və gətirdiyi dividendlərə görə bu gün hətta zəngin təbii sərvətləri belə üstələyir. Azərbaycanda inamla həyata keçirilən tədbirlər deməyə əsas verir ki, respublikamız

yaxın gələcəkdə dayanıqlı iqtisadi inkişaf tempini heç də neft gəlirləri hesabına deyil, məhz bilik, müasir informasiya texnologiyaları, elmtutumlu sahələrin dinamik inkişafı, güclü insan kapitalının formalaşması sayəsində təmin edəcəkdir.

## 7. Nəticə

Müasir şəraitdə Azərbaycanda sosial-iqtisadi inkişafın mövcud vəziyyətinin təhlili və onun prioritet istiqamətlərinin müəyyənləşdirilməsi zəminində aparılan tədqiqat araşdırmaları ilə aşağıdakı nəticələr əldə edilmişdir.

- Azərbaycanda sosial-iqtisadi inkişafın mövcud vəziyyəti elmi cəhətdən kompleks tədqiq edilmişdir.
- Aparılmış hərtərəfli elmi araşdırmaların ümumiləşdirilməsi əsasında sosial-iqtisadi inkişafın konturları və əsas hədəfləri müəyyənləşdirilmişdir.
- Azərbaycanda sosial-iqtisadi inkişafın 2020-ci ilədək dövrü əhatə inkişaf konsepsiyasının icrası zamanı nəzərə alınmalı amillər göstərilmiş və elmi əsaslara söykənən konkret müddəalar irəli sürülmüşdür.

## Ədəbiyyat siyahısı:

1. Atakişiyev M.C. (2005). Azərbaycan sosial-iqtisadi tərəqqi yolunda. Bakı.262 s.
2. Mehdiyev R. (2005). Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı. XXI əsr. Yeni Nəşrlər evi, 464 s.
3. Hüseynov T. (2004). Azərbaycanda bazar sisteminin iqtisadi problemləri. Bakı. Elm, 228 s.
4. Самедзаде З.А. (2004). "Этапы большого пути: экономика Азербайджана за полвека её новые реалии и перспективы". Баку. НУРЛАН, 936 с. (*Səmədzadə Z.A. (2004). "Böyük yolun mərhələləri: yarım əsr ərzində Azərbaycan iqtisadiyyatı, onun gerçəklikləri və perspektivləri" Bakı: NURLAN, 936 s.*).
5. Hacızadə E.M. (2006). Sosiallaşan iqtisadiyyat. Bakı: Elm, 509 s.
6. Hacızadə E.M., Bağırzadə E.R. (2011). Azərbaycan iqtisadiyyatının dünyadakı reytinqi. Bakı. Elm. 128 s.
7. Социально-экономическая география зарубежного мира. (2003). (Под редакцией члена корреспондента РАН заслуженного профессора МГУ В.В.Волжского) Москва. Дрофа, 2003, 190 с.(*Dünyanın sosial-iqtisadi coğrafiyası. (2003). REA-nın müxbir üzvü, MDU-nun professoru V.V.Voljskinin redaktəsilə. Moskva. Drafa, 190 s.*).
8. Əlirzayev Ə. (2000) Azərbaycanda sahibkarlığın inkişaf problemləri və həlli yolları. Bakı: Elm, 116 s.

9. www.azstat.org. - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.
10. www.economy.gov.az - Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi.
11. www.worldbank.org - IBRD - Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı.

**Атакишиев МушфигДжамиль оглы**
Д.э.н. профессор, ректор Научно-образовательного центра
Университета «Тафаккур»

## Социально- ориентированная экономика - основа устойчивого развития

### Аннотация

*Цель исследования* – анализ в современных условиях социально-экономического уровня развития Азербайджана, определение его ключевых приоритетов и выдвижение в данной области соответствующих предложений.

*Методология исследования* – системный и сравнительный анализ, метод прогнозирования.

*Результаты исследования* – проводились систематические исследования с точки зрения устойчивого социально-экономического уровня развития Азербайджана, и в этом направлении были даны научно-обоснованные предложения и рекомендации.

*Ограничения исследований* – недостаточное совершенство применения методов долгосрочного прогноза социально-экономического развития.

*Практическая значимость исследования* – были выдвинуты научно-обоснованные конкретные предложения, рекомендации и положения, которые имеют важное значение в создании социально-экономической концепции развития Азербайджана, охватывающей длительный период.

*Оригинальность исследования и научная новизна* – с использованием новых методов подхода проведено научное исследование приоритетов социально-экономического развития Азербайджана.

**Ключевые слова:** *устойчивый экономический рост, социально-ориентированное развитие, стратегия общественного развития, экономическая стратегия.*

**Atakishiyev Mushfig Jamil oglu**
Prof. Dr.,
Rector of "Tafakkur" Science and Educational Center

## Social oriented economy is the foundation of sustainable development

### Abstract

*Purpose* – the analysis of the socio-economic development level of Azerbaijan, identification of key priorities and putting forward relevant proposals in modern condition.

*Methodology* – a systematic and comparative analysis and forecasting method.

*Findings* – in terms of the sustainability of the socio-economic development of Azerbaijan, the systematic research was carried out and was given scientifically based proposals and recommendations in this regard.

*Practical implications* – in making socio-economic development concept, covering the long-term period of Azerbaijan, were put forward science-based concrete proposals and recommendations provisions that are important.

*Originality* – scientific research of priorities of social and economic development of Azerbaijan using from the methods of new approach.

**Key words:** *sustainable economic growth, social oriented development, strategy of social development, economic strategy.*

**JEL Classification Codes:** D6, E21, E6, L26.

Məqalə redaksiyaya daxil olmuşdur: 08.02.13.
Çapa qəbul olunmuşdur: 24.02.13.